

**Humanitar missiyamız davamlıdır.**

Yola saldığımız 2019 cu il humanitar fəaliyyətlərimizdə, Qızıl Aypara Cəmiyyətinin dövlət qurumları ilə imzaladığı əməkdaşlıq müqavilələri çərçivəsində, həyata keçirilən bütün fəaliyyətlərin məhsuldar olduğunu qeyd edə bilərik. Strateji İnkişaf Planına uyğun olaraq həyata keçirilən fəaliyyətlərimiz barədə qısa məlumat verərək qeyd etmək istərdim ki, Təhsil Nazirliyi ilə ildə imzalanmış memoranduma əsasən orta təhsil ocaqlarında beynəlxalq humanitar dəyələrin yayımı, yol təhlükəsizliyi, Qızıl Xaç və Aypara emblemlərin istifadəsi və yayımı mövzusunda mühazirələr, seminar-təlimlər təşkil edilmişdir. FHN-i ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində Fövqəladə Mobil Könüllü dəstələrinin fövqəladə hal zamanı lazım olan biliklərin və davranış qaydaları ilə bağlı davamlı təlim və seminarlar təşkil edilmiş nəticələrin öyrənilməsi ilə bağlı qrafikə uyğun simulyasiya tapşırıqlar təşkil edilmişdir. Dövlət Miqrasiya Xidməti ilə əməkdaşlıq çərçivəsində miqrant ailələrinə ödənişsiz Azərbaycan dili kursları, cəmiyyətə inteqrasiyaları üçün cəmiyyətin müvafiq şöbəsi tərəfindən vəkillik edilmişdir. Səhiyyə Nazirliyi və bu nazirliyə aid olan digər strukturlar ilə İSİM, Qan bankı, **QİÇS Mərkəzi,** Vərəmlə mübarizə koalisiyası mərkəzləri ilə sıx əməkdaşlıq edilmiş bu istiqamətdən irəli gələn fəaliyyətlərdə Milli Cəmiyyət üzərinə düşən vəzifələrin öhdəsindən məsuliyyətlə gəlmişdir.

Uzun sürən qarşıdurmalar, siyasi böhranlar, dünyada baş verən silahlı konfliktlər humanitar fəlakətlər böyük bir miqrant ordusunun yaranmasna səbəb olmuşdur. Qeyd etdiyim səbəblər üzündən yaranmış humanitar fəlakətlər Beynəlxalq təşkilatlar, xüsusilə bu sahədə Beynəlxalq Hərakat öz üzərinə düşən missiyanı daha da çətinləşdirmiş, milli cəmiyyətlərin rolunu aktuallaşdırmış, qarşılıqlı əməkdaşlıq əlaqələrin daha da эенишлянməsinə zəmin yaratmışdır. Azərbaycan Qızıl Aypara Cəmiyyəti də bu sahənin inkişafına öz töhvəsini verməklə prioritet problemlərə biganə qalmayaraq öz səylərimizi göstərmişik. Belə ki yola saldığımız ilin 03-13 dekabr tarixlərində İsveçrənin Cenevrə şəhərində Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin Beynəlxalq Konfransında rəhbərlik etdiyim nümayəndə heyətilə

qatıldıq. Əminliklə söyləyə bilərəm ki, **Baş Assambleyanın**, Beynəlxalq Konfransın həm Nümayəndələr Şurasının plenar iclaslarında, dairəvi masalarda müzakirə edilən bütün qətnamə və qərarlara öz münasibətlərimi bildiriərək, Milli Cəmiyyətin maraqlarından irəli gələn məsələlər layiqincə qorunmuş və bu istiqamətində qətiyyətli çıxışlar etmişik. Misal olaraq, Beynəlxalq Konfransın və Nümayəndələr Şurasının gedişatı zamanı AzQAC nümayəndə heyətinin rəhbəri olaraq çıxış edərək Beynəlxalq Federasiyanın 2030 Strategiyasına öz fikir və münasibətimi bildirmişəm. Çıxışımda yeni strategiyanın Milli Cəmiyyətlərin maraqlarına uyğun olmasının vacibliyini qeyd etmiş, xüsusi olaraq insanların köç və daxili yerdəyişmələri zamanı insan təhlükəsizliyini təmin etməyə, insani rəftar və onların ləyaqətlərinə hörmətlə yanaşmağa, ehtiyacları və problemləri barədə məlumat çatdırılmasının vacibliyini və həmçinin, ölkəmizin çoxillik təcrübəsini nəzərə alaraq, miqrantlar və qaçqınlarla yanaşı həssas qruplardan biri kimi məcburi köçkünlərə də diqqət yetirmənin vacibliyini vurğulamışdım.

**Ən vacib amil olaraq vurğulamaq istərdim ki, Milli Cəmiyyətin davamlı və sabit inkişafında dövlətimizin əvəzolunmaz dəstəyi, lazımı büdcə yardımı əsas rol oynamışdır. Həyata keçirilən bütün fəaliyyət istiqamətlərində Beynəlxalq Federasiyanın 2020 və Qızıl Aypara Cəmiyyətinin cari Strateji İnkişaf Planına uyğun olmuşdur. Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyi (AİDA) ilə əməkdaşlığımız ötən il ərzində daha da inkişaf etdirilmişdir. Apardığımız müzakirələr zamanı beynəlxalq yardımların edilməsində Milli Cəmiyyətin iştirakının vacibliyi tərəfimdən irəli sürülmüş və bununla bağlı müvafiq mexanizm işlənmişdir. Beynəlxalq Donorluq və fondreyzinq siyasətimiz uğurlu müstəviyə qaldırılmışdır. Məhz keçən ildə Beynəlxalq humanitar yardım çağırışlarına dəstək verərək İran İslam Respublikasında sel daşqınlarından əziyyət çəkən insanlara 8200 (səkkiz min iki yüz) və Əfqanıstanda quraqlıq əleyhinə yardım kompaniyasına 5420 (beş min dörd yüz iyirmi) manat maliyyə yardımı edilmişdir. Həmçinin növbəti il üçün həyata keçiriləcək Avstraliya meşə yanğınlarına dəstək kompaniyasında Milli Cəmiyyətinin rolu və imkanı yüksək dəyərləndirilmişdir. Bu siyasətimizlə əldə etdiyimiz tarixi uğurlar Qafqaz regionunda və MDB məkanında lider Milli Cəmiyyət statusunun möhkəmləndirlməsi, beynəlxalq humanitar arenada müsbət imicimiz məni səmimi qəlbdən sevindirir.**

Beynəlxalq əlaqələrimizin gücləndirilməsi istiqamətində Qızıl Xaç və Qızıl Aypara hərakatı çərçivəsində təşkil olunmuş və dəvət aldığımız bütün görüşlərdə, seminarlarda, müzakirələrdə Katibliyin müvafiq işçi heyəti iştirak edərək, Milli Cəmiyyəti yüksək səviyyədə təmsil etmişlər. Xüsusuilə qeyd etmək istərdim ki, rəsmi dəvətimiz ilə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (BQX/QAC) Avropa və Asiya zonası üzrə Vitse-prezidenti, Türkiyə Qızıl Aypara Cəmiyyətinin prezidenti Kərəm Kınıkın başçılıq etdiyi 4 nəfərdən ibarət nümayəndə heyəti ilə ölkəmizə səfər etmişlər. Səfər müddətində Az QAC-ın qardaş Türk Kızıl Ayı ilə qarşılıqlı münasibətlərin gücləndirilməsi, Beynelxalq Federasiya gələcək perespektivlər geniş müzakirə edilmişdir.

Fürsətdən istifadə edərək Milli Cəmiyyətin humanitar fəaliyyətlərin həyata keçirilməsində dəstək olmuş bütün insanlara, yerli ve beynəlxalq teşkilatlara öz minnətdarlığımı bildirirəm. Əminəmki ki, humanitar fəaliyyətlərimiz davamlı olacaq, yerli və beynəlxalq səviyyədə dəstəklənəcəkdir.



## Regional Mərkəz və yerli bölmələrlə iş

| MƏQSƏD |
|---|

| AzQAC-nin Komitələrinin, Regional Mərkəzlərinin,yerli bölmə və ilk təşkilatlarının maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi, mərkəzi və yerli səviyyədə səmərəli v özünü doğruldan humanitar fəaliyyətləri həyata keçirmək məqsədilə Milli Cəmiyyəti milli v beynəlxalq müstəvidə insanlara dəstək olan güclü humanitar təşkilata çevirmək. | | |
|---|---|---|
| | **●FƏALİYYƏT** | **● NƏTİCƏ** |
| **1.** | ▪Tədbirlər təşkil olunmuşdu | ▪2019-cu ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin region mərkəz və yerli bölmələrlə iş şöbəsi rayon bölmələri ilə Təhs Nazirliyi və Səhiyyə Nazirliyi ilə birgə orta məktəblərdə tədbirlər təşkil olunmuşdur. |
| **2.** | ▪Təşkilati məsələlərin həlli. | ▪Rəhbərlik tərəfindən verilən tapşırıqlar vaxtı vaxtında yerin yetirlmişdir.Eyni zamanda təşkilati sənədlər vaxtı vaxtında rayon bölmələrinə çatdırılmışdır. |
| **3.** | ▪Regional Mərkəzlərdə zon müşavirəsi keçirilmişdir. | ▪Mart və Avqust aylarında Sumqayıt və Bakı Regional Mərkəzlərində zona müşavirəsi keçirilmişdir.Müşavirədə koordinator,rayon və şəhər bölmə sədrləri iştirak etmişlər.Əsa mövzu üzvlərin sayının artırılması,bölmələrə yardım üçün müraciətlərin operativ cavablandırılması,yerli səviyyədə humanitar aksiyaların keçirilməsi tövsiyə olunmuşdur. |
| **4.** | ▪ Hər rübün sonunda Bakı v Sumqayıt Regional Mərkəzlərdə rübün yekunun dair görüşlər. | ▪ Hər rübün sonunda Sumqayıt və Bakı Regional Mərkəzlərində sədrlərin 3 ay ərzində gördükləri işlərdən danışılmış,tapşırıqlar verilmiş və problemləri dinlənilimişdir |

| | | |
|---|---|---|
| 5. | ▪ Regional Mərkəz Koordinatorları ilə görüşün keçirilməsi. | ▪ Təşkilat idarəsi rüblər üzrə Regional Mərkəz Koordinatorları ilə mütəmadi olaraq görüşlər keçirmişdir.Bu görüşlərdə koordinatorların bölmələrdə görüşü,hər hansı bölmələrdə olan problemlər,icra orqanları ilə münasibətlərinin hansı səviyyədə olmasından danışılmışdır.Həmçinin gündəlik təşkilati məsələləri diqqət mərkəzində saxlamaq bildirilmişdir. |
| 6. | ▪ Yerli İcra Hakimiyyəti orqanlarına müvafiq məktublar və müraciətlər göndərilmişdir. | ▪İcra Hakimiyyəti orqanlarına 50-dən artıq məktub göndərilmişdir.Məktubda üzvlük haqqının yığılması və ofis yerinin ayrılması barədə müraciət edilmişdir. |
| 7. | ▪Beynəlxalq Qızıl Xaç Komitəsinin Bakı nümayəndəliyi tərəfindən yönləndirilən məktubların icrası. | ▪Beynəlxalq Qızıl Xaç Komitəsinin Bakı nümayəndəliyi tərəfindən 10-dan çox məktub daxil olmuşdur.Məktub cəzaçəkmə müəssisələrində olan şəxsin ailə üzvləri tərəfindən göndərilmişdir.Rayon bölmə sədrlərinə bu barədə tapşırıq verilmiş,sədrlər tərəfindən araşdırılmış və lazımi tədbirlər görülmüşdür. |
| 8. | ▪Rayon və şəhər bölmələri tərəfindən təşkil olunmuş humanitar aksiyalarda iştirak | ▪Novruz bayramı,Dünya azərbaycanlılarının həmrəylik günü,ahıllar günü münasibətilə keçirilmiş bayramlarda Bakı Regional Mərkəzinin bir çox rayon bölmələrində,həmçinin Sumqayıt şəhər bölməsində keçirilmiş tədbirlərdə verilmiş bayram sovqatlarının paylanılmasında iştirak edilmişdir |
| 9. | ▪Yeni seçilmiş sədrlər ilə iş | ▪2019-cu ildə 3 rayon bölməsində Şamaxı,Göyçay və Qusarda kadr dəşiyliyi oldu.Yeni bölmə sədrləri seçildi və onlarla müvafiq söhbətlər aparıldı.Lazımi sənədlər təqdim olunub və onların fəaliyyəti üçün şərait yaradılıb. |

| | | |
|---|---|---|
| **10** | ▪Xarici qonaqların səfərlərini təşkili. | ▪2019-cu ilin noyabr ayında Türkiyə Qızıl Aypara Cəmiyyətinin prezidenti, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypa Federasiyasının vitse-prezidenti Kerem Kınıkın Bakıya səfər təşkil olunub.Qonaqlar ilə birlikdə Füzuliyə və Cocuq Mərcanlıya səfərlər olub. |
| **11** | ▪İlin yekun müşavirəsi. | ▪Dekabr ayında Bakıda və Sumqayıtda regional mərkəzlərin sədrləri ilə birlikdə ilin yekunlarına dair müşavirə keçirilib. |



**Sağlamlıq , qayğı və FHH Şöbəsi**

| MƏQSƏD 3 | | |
|---|---|---|
| ***Səhiyyə maarifi və səhiyyə xidmətləri vasitəsilə insanların sağlam və təhlükəsiz həyat yaşaması naminə bilik və bacarıqlarını artırmaq.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | **İl ərzində** Bakının 7, cəbhə xəttinin 7 və digər 32 şəhər və rayon bölmələrinin təşkilatları, təhsil ocaqları, universitetlərdə, gənclər və BMT-nin qaçqınlar üzrə mərkəzlərində, tibb müəssələrində (xəstəxanalar, dispanserlərç tibb kolecləri), ictimai birliklərdə, şəbəkələrdə və şuralarda tərəfdaşlarla birlikdə ("Sağlam Gənclik üçün Narkomaniyaya Yox Deyək", narkotiklərdən və tütün məhsullarından istifadənin zərəri, "Öz İİV statusunu öyrən", "Ana südü ilə qidalanma", uşaqların düzgün inkişafı və sağlamlığı, uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi, qeyri-yoluxucu xəstəlikər, sağlam həyat tərzi, diabet, hepatit, HİV/AİDS və s.) sağlamlıq mövzularında təlimlər, görüşlər, dairəvi masalar və maarifləndirici tədbirlər təşkil edilmişdir.<br><br>Beynəlxalq Təşkilatlar tərəfindən elan olunmuş günlərə dair (Ümumdünya Sağlamlıq Günü, "12 May Beynəlxalq Tibb Bacısı ", Ümumdünya Gida Günü, Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə günü, Ümumdünya Hepatit Günü, Ümumdünya AİDS-lə Mübarizə Günü) müvafiq tədbirlərin təşkil olunması (görüşlər, maarifləndirici seminarlar, test-müayinələr, mövzular üzrə tematik təqdimatlar) və ya təşkil edilmiş tədbirlərdə iştirak təmin edilmişdir.<br><br>Eyni zamanda cəmiyyətin sağlamlıq üzrə əmkdaşlarının müxtəlif sağlamlıq mövzularında ölkə daxilində və ölkədən kənar | 5568 nəfər gənc, yeniyetmə, icma nümayəndələri, miqrant ailələri, müəllim və tələbə heyəti, xəstəxanada təcrübə keçən həkimlər, şəfqət bacıları, idarə, meəssələr və mərkəzlərin əməkdaşları qeyd edilən mövzularda maarifləndirilmişdir, |

| | | |
|---|---|---|
| | konfrasnlar (misal olaraq “Qeyri-infeksion xəstəliklərin yükü və mübarizə strategiyaları” mövzusunda II Milli Konfrans), görüşlər və seminarlarda (misal olaraq “Fövqəladə hallar zamanı Sağlamlıq” seminarı) iştirakı təmin edilmişdir. | |
| **2.** | Azərbaycan Qızıl Aypara Cəmiyyətinin təşkilatçılığı və İran Qızıl Aypara Klinikasının iştirakı ilə Cocuqmərcanlıda humanitar aksiya keçirildi. Aksiya çərçivəsində AzQAC tərəfindən sakinlər üçün ilk yardım və fövqəladə hallar zamanı çadırların qurulması üzrə təlimlər keçirildi və sonda onlara çadırlar( 120 nəfərlik 90kv.m., 70 nəfərlik 63kv.m.) hədiyyə olundu. İlk yardım təlimləri zamanı sakinlərə zərərçəkmiş inslara yardımetmə vərdiçləri aşılandı. | Cocuqmərcanlı kəndinin 130 sakini dəvət edilmiş İran Qızıl Aypara Klinikasının həkim briqadası tərəfindən müxtəlif sahələr üzrə (ürək, qöz, dəri və s.) pulsuz müayinə edildi.<br><br>AzQAC Fövqəladə Mobil Könüllü Dəstələrinin (FMKD) İlk Yardım təlimçiləri tərəfindən Cocuqmərcanlının təxminən 96 sakini İlk yardım vərdişlərinin nümayişi ilə əhatə edildi. |
| **3.** | Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (Beynəlxalq Federasiya), Azərbaycan Qızıl Aypara Cəmyyəti (AzQAC) və ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) yerli icmaların fövqəladə hallar zamanı sağlamlıq üzrə dayanıqlılığının gücləndirilməsi istiqamətində yeni layihəyə start verdilər. | Layihə çərçivəsində 8 regionun əhatə olunması, 40 AzQAC rayon bölmələrinin və 160 icmaya əsaslanan könüllülərin təlimatlandırılmsı nəzərdə tutulur. Eyni zamanda təlim keçmiş könüllülər tərəfindən icma üzvləri arasında maarifləndirici tədbirlərin təşkil olunması planlaşdırılır. |
| **4.** | May-Iyun ayları müddətində Xəzər, Xarici dillər, Qafqaz, Slavyan, Bakı Turizm Universitetlərinin istehsalat təcrübəsində olan tələbələrinə AzQAC-ın Baş Qərargahında mühazirələr oxunmuş, praktiki nümayişlər və təqdimatlar edilmişdir. | Seminarda iştirak edən 72 nəfər tələbə sağlam həyat tərzi və ilk yardım sahələrində bilik və bacarıqlarını artırmışlar. |

| | | |
|---|---|---|
| **5.** | **İl ərzində Azərbaycanda könüllü təmənnasız qan donorluğunun inkişafına yardımçı olmaq məqsədilə** Bakı, Sumqayıt və bir sıra regionların tədris oçaqlarında, tibbi müəssisələrində (misal olaraq Sumqayıt Texnologiyalar Parkının (STP) inzibati binasında yerləşən ibb məntəqəsində), gənclər mərkəzlərində qanvermə aksiyaları və "Qan, onun komponentləri, qan xəstəlikləri" mövzularında maarifləndirici seminarlar təşkil edilmişdir. Eyni zamanda bu günlə bağlı ölkə daxilində həyata keçirilmiş tədbirlərdə (Qan Donorlarının III Regional Forumu, 19 Beynəlxalq Gənclər Forumu) AzQAC-ın əməkdaşlarının iştirakı təmin edilmişdir. | Qanvermə aksiyalarının nəticəsində 725 nəfər qan donoru olmuş və keçirilən maarifləndirmə tədbirləri zamanı 526 nəfər əhatə edilmişdir. |
| **6.** | **Əhalinin (icmaların) İlk Yardım üzrə bilik və bacarıqlarını artırmaq məqsədilə** il ərzində Bakının 5, Sumqayıt, cəbhə xətti rayonlarının 4 və digər 26 rayonun könüllüləri və işçi heyyəti üçün, gənclər mərkəzləri, təhsil ocaqları (məktəblər, kolleclər, universitetlər), mülki müfadiə obyektləri, beynəlxalq təşkilatlar, otellər, mərkəzi parklar, satış şəbəkələrində, icmalar arasında, "Məktəblinin dostu" layihəsi çərçivəsində pullu və pulsuz nəzəri məlumatlar və praktiki nümayişlər vasitəsilə İlk Yardım təlimləri (mövzular: İlk yardım və şəxsi təhlükəsizlik, huşu ozundə olan və olmayan, nəfəs alan zərərcəkmişin müayinnəsi, ürək-ağ ciyər reanimasiyası, bərpa vəziyyəti, tənəffüs yollarının tutulması, boğulma, yanıqlar, yaralar, qanaxmalar, sınıqlar, epileptik hallar) və maarifləndirmə işləri təşkil edilmiş və FMKD yaradılmış rayonlarda İlk Yardım Postları quraşdırılmışdır.<br><br>Eyni zamanda müxtəlif tədbirlərin təşkili ilə "Ümumdünya İlk Yardım günü" qeyd edilmişdir. Misal olaraq, AzQAC-ın və FHN-nin Mülkü Müdafiə Qoşunlarının arasında birgə təşkil edilmiş maarifləndirinci tədbir; Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsində və | 3307 nəfər gənc, yeniyetmə, AzQAC-ın könüllüləri, miqrant ailələri və icma nümayəndələri, yerli icra nümayəndələri, İlk Yardım vərdişlərinə yiyələnmişdir. |

| | | |
|---|---|---|
| | Azərbaycan Dəmiryol QSC-nin Sumqayıt və Gəncə qatar bələdçiləri, miqrant ailələri arasında, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə Tərtərdə İlk Yardım təlimləri. | |
| **7.** | **Əhalinin (icmaların) Psixososial dəstək üzrə bilik və bacarıqlarını artırmaq məqsədilə il ərzində** Bakının 4, cəbhə xətti 2 rayonlarının təhsil ocaqları (məktəblər, kolleclər), mədəniyyət evi və mərkəzi kitabxana, Psixo-nevroloji Uşaq Mərkəzi, Sosial Məzun evi, AzQAC-ın Baş Qərargahında "Fövqəladə Hallar zamanı və dinc şəraitdə İlkin Psixoloji Yardımın göstərilməsi qaydaları, "Stressin əlamətləri, mənfi və müsbət cəhətləri və idarə olunması", "Psixi sağlamlıq olmadan sağlamlıq olmaz"mövzuları üzrə təlimlər və mühazirələr təşkil edilmişdir.<br><br>Eyni zamanda müxtəlif tədbirlərin təşkili ilə "Ümumdünya İlk Yardım günü" qeyd edilmişdir (misal olaraq Pirallahıda bu günə həsr olunmuş tədbir) | Nəticədə 512 nəfər tələbə, müəllim heyəti, icma nümayəndəsi, istehsalat təcrübəsi keçən tələbələr və AzQAC-ın könüllüləri adı çəkilən mövzularda maarifləndirilmişdir . |
| **8.** | **2011-ci ildən Milli Cəmiyyət Vərəm üzrə Azərbaycan QHT Koalisiyanın üzvü olmuş və il ərzində üzv olaraq** vərəm sahəsində fəal olan dövlət və QHT-la əməkdaşlıq çərçivəsində Bakı şəhəri və bir sıra regionların təhsil (universitetlər, məktəblər) və tibb ocaqları (misal olaraq, "Uşaq sümük vərəm xəstəliyi" sanatoriyası, dispanserlər), M.Şəhriyar adına uşaq kitabxanası, Bakıxanov qəsəbəsində yerləşən "Asüdə vaxtı" Mərkəzi, Qubadlı rayon məcburi köçkün məktəbi, mədəniyyət və | Keçirilən bütün tədbirlər nəticəsində 908 nəfər (Qadınlar Cəmiyyətinin üzvləri, həkimlər, tibb bacıları, jurnalistlər, kitabxana işçiləri, müəllim və tələbə heyyəti, vərəmə yoluxmuş və uğurlu müalicə olunan xəstələr, uşaqlar) iştirak etmişlər. |

| | | |
|---|---|---|
| | mətbuat mərkəzlərində, müxtəlif silsilə ictimai tədbirlərdə, baş tutmuş texniki görüşlərdə, maarifləndirmə işində, Bakıda təşkil edilmiş yekun Konfransda, Milli Dialoq adlı tədbirdə, seminarlarda və beynəlxalq görüşlərdə fəal iştirak etmişdir.<br><br>Eyni zamanda  müxtəlif tədbirlərin təşkili ilə və 2019-cı ilin "Vərəmə son qoymaq Vaxtıdır…" şüarı altında  24 Mart  "Ümumdünya Vərəmlə Mübarizə Günü" qeyd edilmişdir. Belə ki, bu günlə bağlı AzQAC-nin əməkdaşları, Koalisiya üzvləri, səhiyyə sahəsində fəaliyyət göstərən aktivist QHT-lər, könüllülər və jurnalistlər Fəvvarələr meydanında "Vərəmə son qoymağın Vaxtıdır" adlı maarifləndirici aksiyasında, Milli Məclisdə vərəm məsələsi ilə bağlı  İctimai dinləmədə,  Park İnn hotelində ÖƏK Katibliyinin dəstəyi ilə Azərbaycan Vərəm Əleyhinə QHT Koalisiyasıyası  və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası tərəfindən təşkil olunmuş konfranslarda təşkilatçı və iştirakşı qismində iştirak etmişlər. | |




**Fondların artırılması və gəlir gətirmə**

| **MƏQSƏD** | |
|---|---|
| ***AzQAC-ın maliyyə bazasının gücləndirilməsi məqsədilə maliyyə mənbələrinin artırılması.*** | |
| **FƏALİYYƏT** | **NƏTİCƏ** |

| | |
|---|---|
| Dekabr ayında BQXK tərəfindən 30 ədəd 20 x 20 ölçüsündə kiçik ianə qutuları, 10 ədəd 80 x 30 ölçüsündə böyük ianə qutuları, bundan əlavə 60 ədəd 20 x 20 ölçüsündə kiçik ianə qutuları daxili imkanlar heabına hazırlanaraq Fondların artırılması və gəlir gətirmə şöbəsinə təhvil verilmişdir. | İanə qutularının sayı artmış, yerləşdirilməsi və yığımı üçün geniş imkanlar yaranmışdır. |
| 2019-cu il ərzində bir sıra şirkət və müəssisələrə Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə birgə əməkdaşlıq edilməsi üçün müvafiq məktublar göndərilmişdir. | İl ərzində 500 məktub göndərilmiş və “Bravo” marketlər şəbəkəsi, “Burger King”“Veysəloğlu”, “Albalı” market, ”Jasmin” Aptek, “Chicco” uşaq mağazası, “Go Sport”, “The Bagel”, “Spar” marketlər şəbəkəsi və s. kimi<br>bir çox şirkət və müəssisələrdən ianə qutularının yerləşdirilməsi ilə bağlı müsbət cavablar alınmışdır. |
| İl ərzində hər ay üzrə ianə qutularında yığılan vəsaitlər toplanılmışdır. | İanə qutularından ***16.252*** AZN məbləğində pul vəsaiti toplanılmışdır. |
| | |



**Miqrasiya şöbəsi**

| | | |
|---|---|---|
| **MƏQSƏD** | | |
| **Ölkəyə təşrif buyuran miqrantların, həmçinin, qaçqın və məcburi köçkünlərin normal şəraitdə yaşaması üçün onların bütün yerli və beynəlxalq hüquqlarla təmin olunmasında vəkillik etmək, ölkədə yaşayan miqrantlara daim diqqət və qayğı göstərərək əsas ehtiyaclarını öyrənmək və dəstək olmaq.** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| 1. | 11 fevral 2019-cu ildəAsan Xidmətin təşəbbüsü və Aypara Cəmiyyəti Miqrasiya şöbəsinin təşkilatçılığı ilə “ Mənim qəhrəmanım sən ol” mövzusunda ən yaxşı inşa müsabiqəsi keçirildi.<br>19 fevral 2019-cu ildə CM City Hoteldə Bakı şəhər Qadınlar Cəmiyyəti, Sabunçu Aypara Cəmiyyəti və Miqrasiya şöbəsinin birgə təşkili ilə Vertebra Onurğa klinikası | **24 nəfər arzusunda olduqları əşyalarla mükafatlandırıldılar.**<br>**Tədbirdə klinika həkimləri tərəfindən 28 nəfər miqrant şagirdin pulsuz onurğa yoxlaması aparıldı,musiqili bayram süfrəsi** |

| | | |
|---|---|---|
| | tərəfindən miqrant şagirdlərin müayinəsi aparıldı. | **təşkil edildi, paltar və müvafiq hədiyyələr paylandı.** |
| 2. | 2019-cu il 16 mart tarixində Novruz Bayramı münasibətilə AzQAC-ın Sabunçu rayon şöbəsinin təşəbbüsü və Miqrasiya şöbəsinin təşkilatçılığı ilə Azərbaycan dili kursunda iştirak edən miqrant ailələri(28 nəfər) ilə Milli sahil parkında gəzinti təşkil edilmiş və bayram süfrəsi açılmışdır.<br>19 mart 2019-ci il tarixində Novruz bayram münasibəti ilə Qaçqın Qadın və Gənclər Mərkəzində Azərbaycan dili kursunda iştirak edən miqrantlar üçün bayram şənliyi keçirilmişdir. | **28 nəfər bayram gəzintisində iştirak etmişdir.**<br>**52 ailəyə şirniyyat süfrəsi açılmış, bayram hədiyyələri paylanmışdır.** |
| 3. | 20 aprel 2019-cu ildə Vertebra klinikasının təşəbbüsü və Miqrasiya şöbəsinin təşkilatçılığı ilə CM City Hoteldə miqrant ailələrin ilə görüş keçirildi. | **Tədbirdə 20 əfqan ailəsinə ehsan süfrəsi musiqili əyləncə və paltar yardımı təşkil edildi.** |
| 4. | İyun ayının 30-da ötən il üçün Azərbaycan dili kursunda iştirak edən şagirdlərin 6-cı tədris ilinin bağlanış tədbiri keçirilmişdir. | **46 nəfərə 1 illik tədris üçün sertifikatlar verilmiş və çay süfrəsi təşkil edilmişdir. Tədbirdə 60 miqrant, müxtəlif təşkilatlardan nümayəndələr, BMT QAK-ın Bakı ofisinin rəhbərliyi, QQGM-nin rəhbərliyi iştirak etmişdir.** |
| 5. | Oktyabr ayında Azərbaycan dili kursunun 7-ci açılışı olmuşdur. | **Açılışda 32 nəfər miqrant, BMT QAK-ın Bakı ofisinin rəhbərliyi, QQGM-nin rəhbərliyi, Aypara Cəmiyyəti rəhbərliyi iştirak etmiş, çay süfrəsi təşkil edilmiş və şagirdlərə dərs ləvazimatı paylanmışdır.** |

| | | |
|---|---|---|
| 6. | 31 oktyabrda “Sağlam düşüncə” Gənclər təşkilatının 6 üzvü ilə ayparaçıların görüşü baş tutdu. | **Təşəbbüskar təşkilat öz fəaliyyətləri haqda məlumat verərək Aypara cəmiyyəti Miqrasiya şöbəsi ilə gələcək əməkdaşlıq arzusunda olduqlarını bildirdilər. 15 bağlama müxtəlif yaş üçün paltar yardımı etdilər.** |
| 7. | 2019-cu ilin yanvar-dekabr aylarında İncəsənət muzeyinə, teatrlara,Sabunçu rayon Aypara cəmiyyətinin tədbirlərinə, ASAN xidmət mərkəzinin müsabiqəsinə, Azərbaycan Vərəm koalisiyasının konfransına, Sülh Uşaq və Gənclər şəbəkəsinin Lider məktəbinin dərslərinə dəvətlər təşkil edilmişdir. | **108 nəfər miqrant çox aktiv şəkildə bu tədbirlərə qatılmışdır.** |
| 8. | **26 Fevral Xocalı faciəsi** və **8 may** Şuşanın işğalı günüylə bağlı informativ dərslər keçilmiş və Ramazan bayramı ilə bağlı Qaçqın Qadın və Gənclər Mərkəzində tədbir və ehsan süfrəsi təşkil edilmişdir. | **54 nəfər miqrant iştirak etmişdir.** |
| 9. | Yanvar-dekabr aylarında fərdi dəstəkçilər tərəfindən qurban əti paylanmışdır. | **40 ailə bu fəaliyyətdən bəhrələnmişdir.** |
| 10. | Fevral və mart ayında Ombudsman Aparatı nəzdində Uşaq və Gənclər Sülh mərkəzinin Liderlik məktəbində “Miqrasiya nədir və miqrantlarla iş” mövzusunda seminar-dərs keçilmişdir. | **58 uşaq və gənc və 9 miqrant şagird bu tədbirdə iştirak etmiş və bukletlər paylanmışdır.** |
| 11. | Aprel ayında Qaçqın Qadın və Gənclər Mərkəzində Uşaqlarla Sağlam həyat tərzi “ mövzusunda layihə koordinatoru tərəfindən sessiya keçirilmişdir. | **48 miqrant bu təlimdən bəhrələnmişdir.** |
| 12. | Yanvar-Dekabr 2019-cu il ərzində Miqrasiya və Yeni illə bağlı müxtəlif mövzularda | **Əldə olunan məlumat və təcrübə yerli şöbələrin apardığı işlərdə istifadə edilmişdir və şöbənin** |

| | | |
|---|---|---|
| | keçrilən yığıncaq və tədbirlərdə AzQAC-nin Miqrasiya şöbəsinin mütammadi iştirakı.<br>(60 tədbir və seminar) | **işinin daha da səmərəli olmasında tədbiq olmunuşdur.** |
| 13 | Ramazan bayramı münasibətilə könüllülər tərəfindən ərzaq yardımı təşkil edilmişdir. | **11 miqrant ailəsinə bayram hədiyyəsi verilmişdir.** |
| 14 | 2019-cu ilin  yanvar-dekabr aylarında Bayramlar ərəfəsində miqrantlara konsertə, teatra və tədbirlərə biletlər paylanmışdır | **Miqrant ailələrinə 23 bilet paylanmışdır.** |
| 15 | İl ərzində mütəmadi olaraq ehtiyaclı olanlara pal-paltar, ev əşyaları, yataq dəstləri, parçalar ərzaq yardımı paylanmışdır.(fərdi yardımlar,) | **73 ailəyə isti paltar, uşaq gödəkçələri, məktəbli paltarı,çantaları, yataq dəstləri, ev əşyaları, ərzaq paylanmışdır.**<br>**1 böyük Yeni il ağacı və bəzəkləri Qaçqın mərkəzə hədiyyə edilmişdir.** |
| 16 | Sentyabr ayı  üzrə ən çox ehtiyacı olan ailələrə və şəxslərə AzQAC-ın məxsusi yardım paketi(yorğan, döşək, mətbəx dəsti, gigiyenik paket) paylanmışdır. | **1 iraqlı ailəyə məxsusi yardım paketi(yorğan, döşək, mətbəx dəsti, gigiyenik paket) verilmişdir.**<br>**4 əfqan miqranta ilkin fərdi olaraq pul yardımı edilmiş, 3 əfqan ailəsində hüzn mərasimlərində iştirak edilmişdir.** |
| 17 | İl ərzində ad günləri qeyd edilmişdir. | **3 əfqan uşağın ad günü geyd edilmiş və hədiyyəsi verilmişdir.** |
| 18 | İl ərzində İran klinikasında xəstə miqrantların müayinəsi təşkil edilmişdir | **6  xəstə və imkansız miqrant üçün pulsuz müayinə kartı verilmişdir.** |

| | | |
|---|---|---|
| 19 | 23. 09.2019-cu ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) Miqrasiya Şöbəsinin müdiri Məmməd Kətanov, Miqrasiya şöbəsinin təhsil üzrə əməkdaşı, miqrantlara Azərbaycan dili müəllimi Sona Hacıyeva,Ictimai layihələr koordinatoru Mətanət Qaraxanova Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının  (BMT QAK) QQGM-də işgüzar görüşdə olmuşlar. | **Görüşün məqsədi Azərbaycan dili kursları barədə yeniliklərin və nəticələrin müzakirəsi və QQGM-in AzQAC-la gələcəkdə müştərək əməkdaşlığının daha da inkişaf etdirilməsi yollarında mütəmadi dəstək imkanlarını müzakirə etmək, ortaya çıxan anlaşılmazlıqların aradan qaldırılması yolunda qüvvələrin və imkanların səfərbər edilməsi idi.** |
| | | |




**Humanitar yardım şöbəsi.**

| MƏQSƏD | | |
|---|---|---|
| ***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək,yardıma ehtiyacı olan ahıl,tənha-kimsəsiz ,qaçqın və məcburi köçkün ailələrə ,aztəminatlı və təbii fəlakətlərdən ,texnogen hadisələrdən zərər çəkmiş zavallı insanlara ,miqrantların müəyyən qisminə müxtəlif formada köməklik göstərmək,humanitar dəyərləri rəhbər tutaraq insanlar arasında mərhəmət və xeyirxahlıq hisslərini aşılamaq.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | 2019 cı ilin humanitar yardım fəaliyyəti ilə bağlı yekun təhlillərin aparılması. | 2020-ci ilin birinci rübünün ilk 20 günü ərzində 2019-cu ilin humanitar yardım fəaliyyəti ilə baglı yekun təhlillər aparılmış,nəticə etibarı ilə illik yekun hesabat hazırlanaraq AzQAC-ın İcraçı Katibinə təqdim olunmuşdur. |
| **2.** | AzQAC- ın Regional mərkəzləri və yerli bölmələri ilə işgüzar əlaqələrin inkişafı . | 2019-cu ilin əvvəlindən etibarən Milli Cəmiyyətin regional mərkəzləri və yerli bölmələri vasitəsilə humanitar yardım fəaliyyətinə dair əlaqələndirmə işi aparılmış,daxil olan ərizə və müraciətlər aidiyyatlı ərazi üzrə yönləndirilərək müsbət cavablandırılmışdır. |
| **3.** | Humanitar yardıma ehtiyacı olan vətəndaşların qəbulu işinin təşkili. | Hesabat ili ərzində hər həftənin çərşənbə günü AzQAC-ın Bakı şəhəri Nərimanov rayon bölməsinin ofisində katiblik tərəfindən vətəndaşların qəbulu zamanı şöbənin iştirakı təmin olunub.Müxtəlif səpkili məsələlərlə bağlı müraciət edənlərin sayı 43 nəfər təşkil edib. |
| **4.** | Müraciət edən tənha və kimsəsiz, aztəminatlı insanların şöbədə və yerli bölmələrdə qeydiyyatının təşkili. | İl ərzində 8 nəfər şöbədə , 48 nəfər isə digər bölmələr üzrə əlavə qeydiyyata götürülərək qeydiyyat siyahılarına əlavə edilmişlər.Şöbə və yerli bölmələr üzrə ümumilikdə 11.000 nəfərə yaxın müvafiq kateqoriyalı insan daimi qeydiyyatdadır.Bunlardan 3.150 nəfəri Bakı şəhəri üzrə yerli bölmələrdə,7.800 nəfəri digər şəhər və |

| | | |
|---|---|---|
| | | rayon bölmələrində, 50 nəfəri isə şöbədə qeydiyyatdadırlar. |
| **5.** | Ərizə və fərdi müraciətlərə baxılması,onlar əsasında sosial vəziyyətin qiymətləndirilməsi və humanitar yardımın gostərilməsi. | İl ərzində şöbəyə 47 yazılı müraciət daxil olmuş, 39(fərdi müraciət) ərzaq və s. formada humanitar yardım göstərilməsi ilə bağlı, 605 nəfər güzəştli tibbi mayinə keçməklə bağlı müraciət etmişlər.Ümumi müraciətlərin sayı 691 nəfər təşkil etmişdir.Müraciətlər mümkün imkanlar daxilində müsbət cavablandırılmışdır. |
| **6.** | Tənha və kimsəsiz , xəstə, ahıl və digər ehtiyaclı insan qruplarının güzəştli və ya təmənnasız tibbi müayinəsinin təşkili. | İl ərzində İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyətinin Azərbaycandakı Klinikası ilə əməkdaşlıq çərçivəsində qeyd olunan kateqoriyaya aid 605 nəfər tibbi müayinə - göndəriş kartı ilə təmin olunmuş və onların təmənnasız müayinədən keçməsinə şərait yaradılmışdır.Təmənnasız tibbi müayinənin ümumi məbləği 60 AZN güzəştli limit həddi olmaqla 36.300AZN təşkil etmişdir. |
| **7.** | Miqrantlar və digər əcnəbi vətəndaşlarla iş. | İl ərzində şöbəyə 9 miqrant ailəsi tərəfindən sosial vəziyyətin yaxşılaşdırılması ilə müraciət daxil olmuşdur.Onlardan 4-ün tibbi müayinəsi təşkil olunmuş, 5 ailəyə Katibliyin digər əlaqədar şöbələri ilə əməkdaşlıq çərçivəsində müvafiq yardımlar göstərilmişdir. |
